

## Ölkəmizi tanıyaq









# Vətənimizin guşələri ilə tanışlıq məktəblilərdə zəngin təəssürat yaradıb







“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının ikinci mərhələsi çərçivəsində Bakı şəhərinin 12 rayonunun - Binəqədi, Qaradağ, Səbail, Sabunçu, Suraxanı, Nərimanov, Nəsimi, Nizami, Xətai, Yasamal, Xəzər və Pirallahının məktəblərindən 168 şagird 12 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına yola salınıb.

Heydər Əliyev Beynəlxalq Aeroportunda toplaşan məktəblilər burada bayram əhvali-ruhiyyəsi ilə qarşılanıblar. Əllərində Azərbaycan bayraqları olan aksiya iştirakçıları bədii proqrama tamaşa ediblər.

Tur-aksiyanın əhəmiyyətindən danışan qrup rəhbəri, 287 saylı “Zəkalar” liseyinin müəllimi Reyhan Hacınskaya bildirib ki, bu layihə çox dəyərlidir. Çünki uşaqlar tanımadığı, görmədiyi bölgələrimizdə olacaq, o yerləri daha yaxşı tanıyacaqlar. Bu, uşaqlarda vətənpərvərlik hissinin yüksəldilməsinə səbəb olacaq. Ona görə də layihənin bütün təşkilatçılarına, aksiyanın təşəbbüskarı Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk.

Digər qrupun rəhbəri Elnur Seyidov qeyd edib ki, bu gün orta məktəb şagirdlərinin Naxçıvana növbəti maarifləndirici tur-aksiyası təşkil edilir. Bu layihə Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilir. Biz dövlətimizin başçısının bu təşəbbüsünə görə ona minnətdarıq. Çox sevinirik ki, bizim əlaçı şagirdlərimiz aksiyada iştirak edirlər. Layihə gənclərin Vətənimizi daha yaxından öyrənməsində, onların dünyagörüşünün artmasında mühüm rol oynayacaq. Belə gözəl tədbirlərin gələcəkdə də davamlı olmasını arzulayırıq.

Şagird Cəlil Əhmədov deyib: “Bu gün yoldaşlarımla birgə qədim Naxçıvana səyahət edəcəyəm. Bu işdə əməyi olan hər bir kəsə, xüsusən də bizi düşündüyünə görə Prezident İlham Əliyevə həmyaşıdlarım adından təşəkkür edirəm. Ümidvaram ki, dərsliklərdən və digər mənbələrdən öyrəndiyimiz məlumatları əyani şəkildə görəcəyik”.

Şagirdlər doğma Azərbaycanımızın ayrı-ayrı guşələrini gənc nəslə daha yaxından tanıtmaq məqsədilə reallaşan tur-aksiyanın təşkilinə və yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıq ediblər.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda olublar.

“Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyətində olan şagirdlərə məlumat verilib ki, müəssisə 2010-cu ildən tam fəaliyyətə başlayıb. Şahbuz şəhərində yerləşən müəssisədə paketlənmiş dərman bitkiləri, çaylar və bəkməzlər istehsal olunur. Müəssisənin avadanlıqları Çin, İran və Almaniyadan gətirilib. Burada il ərzində 8 ton xammal toplanılaraq emal olunur və qablaşdırılır.

Daha sonra məktəblilər 216 şagird yerlik Şahbuz şəhər 2 saylı tam orta məktəbdə olublar. Məktəbin 3 mindən çox dərslik və bədii ədəbiyyat fonduna malik kitabxanasında internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkündür. Tur-aksiya iştirakçıları təhsil ocağında üçü elektron lövhə ilə təmin olunmuş 12 sinif otağına, kimya, biologiya və fizika laboratoriyalarına, hərbi kabinəyə, kompüter, şahmat otaqlarına baxıblar.

Ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən Ağbulaq İstirahət Mərkəzi də tur-aksiya iştirakçılarının marağına səbəb olub. Bu istirahət mərkəzi 3,5 hektar ərazisi olan 3 yaşayış korpusundan və yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə 38 otaq mövcuddur. Burada 80 nəfərlik yemək zalı, mətbəx, ilkin tibbi yardım və 6 iş otağı var. İstirahət mərkəzində kənd məhsullarının satış mağazası da fəaliyyət göstərir.

Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinləyən şagirdlər rəsədxana ilə yaxından tanış olublar. Batabat yaylağının füsunkar gözəlliyini maraqla seyr edən məktəblilər Naxçıvanın ecazkar təbiətinə heyran qaldıqlarını bildiriblər.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Naxçıvanda səfərdə olan Bakı məktəbliləri ecazkar təbiəti, qədim tarixi abidələri ilə diqqət çəkən Ordubad rayonu ilə tanış olublar.

Şagirdlər Ordubad şəhərində yerləşən 3 nömrəli tam orta məktəbə gəliblər.

Burada tur-aksiya iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, muxtar respublikada təhsilin inkişafı diqqət mərkəzindədir. Son illər yaşayış məntəqələrində müasir məktəb binalarının tikilməsi, tədrisdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi təhsil infrastrukturunu tamamilə müasirləşdirib. Bu sahədə həyata keçirilən tədbirlər Ordubad rayonunu da əhatə edib. Bu çərçivədə ötən il martın 29-da Ordubad şəhər 3 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib.

Paytaxt məktəbliləri görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin ev-muzeyində də olublar. Muzeyin binası ikimərtəbəlidir. Ekspozisiya zalı binanın ikinci mərtəbəsində yerləşir. Birinci mərtəbədə isə muzeyin əməkdaşları üçün iş otaqları var. Ekspozisiya zalında Sidqinin hikmətli sözlərindən seçmələr, ömrünün müxtəlif dövrlərini əks etdirən, eləcə də ailə üzvləri, sənət yoldaşları və vaxtilə onun şagirdləri olan görkəmli şəxsiyyətlərin fotoşəkilləri də nümayiş etdirilir. Həmçinin burada görkəmli maarifçinin tərcümeyi-halı, əlyazmaları, nəşr olunan məqalə və kitabları, eləcə də teatr sahəsindəki xidmətlərini əks etdirən dəyərli nümunələr, pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər də qorunur.

Məktəblilər Məmməd Səid Ordubadinin ev-muzeyində də olublar. Məlumat verilib ki, Ordubadi dövrünün ustad ədibi, ictimai xadimi kimi tanınıb. Onun bu xidmətlərini nəzərə alan ümummilli lider Heydər Əliyev 1972-ci ildə Ordubad şəhərində Məmməd Səid Ordubadinin ev-muzeyinin yaradılması haqqında qərar qəbul edib. 2010-cu ildə yenidən qurulan muzeydə yazıçının həyat və yaradıcılığını əks etdirən 2 minə yaxın eksponat saxlanılır.

Akademik Yusif Məmmədəliyevin Ordubaddakı ev-muzeyi ilə tanışlıq da paytaxt məktəblilərində böyük maraq doğurub. Bildirilib ki, alimin ev-muzeyi 1975-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 28 fevral tarixli sərəncamına əsasən, ölkəmizdə Yusif Məmmədəliyevin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunub, görkəmli alimin Ordubaddakı ev-muzeyində yenidənqurma işləri aparılıb.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim “Qeysəriyyə” binası ilə tanışlıq zamanı məktəblilərə XII əsrə aid olan bu tarixi abidə haqqında ətraflı məlumat verilib. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş bu binada indi tarixi eksponatlar sərgilənir. “Qeysəriyyə” dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində - Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir. Bina 1990-cı ilin may ayından Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

Daha sonra “Duzdağ” hotelində tur-aksiya iştirakçıları üçün Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestrinin konserti olub.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın ikinci mərhələsinin iştirakçısı olan naxçıvanlı məktəblilər Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.

Tur-aksiyada sınaq imtahanlarında 450-700 arası bal toplayan 150 nəfər IX-XI sinif şagirdi və 20 bələdçi-müəllim iştirak edir.

Məktəblilər Bakı şəhərində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edəcək, Heydər Əliyev Mərkəzi, Qız qalası, Şirvanşahlar sarayı, Azərbaycan Milli Tarix Muzeyi, İncəsənət Muzeyi, Xalça Muzeyi, “Atəşgah” məbədi və digər əhəmiyyətli mədəni-tarixi yerlərlə tanış olacaqlar.

Bakı şəhərinə yola düşən tur-aksiya iştirakçısı, Babək rayon Sıxmahmud kənd tam orta məktəbin 11-ci sinif şagirdi Zöhrab Musayev ilə söhbətimizdə dedi ki, tur-aksiyalarda iştirak etdiyinə görə sevinc hissləri keçirir. Onun fikrincə, ölkəmizin müxtəlif regionlarına təşkil edilən bu cür ekskursiyalar respublikamızın tarixinin, mədəniyyətinin öyrənilməsinə geniş şərait yaradır. Zöhrab 11-ci sinifdə təhsil aldığını xatırladaraq qeyd edib ki, bu il onun üçün həlledici ildir. Çünki universitet imtahanlarına hazırlaşır və gələcəkdə tarixçi olmağı düşünür. Məhz bu il tur-aksiyalarda iştirak etməsi ona dərslərini daha yaxşı oxuması üçün stimul verir.

Sədərək rayon 1 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Pəri İsmayılova isə tur-aksiyaların təşkil olunmasına göstəriş verdiyi üçün dövlətimizin başçısına dərin minnətdarlığını bildirib. O qeyd edib ki, bu cür tədbirlər məktəblilərin dünyagörüşünün formalaşmasına əvəzsiz töhfələr verir. Şagirdlər görmədiyi tarixi yerlərlə tanış olur, əlavə məlumatlar əldə edirlər.

Şahbuz rayon 1 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Ülviyyə Cəfərli də bildirib ki, tur-aksiyalar ölkəmizin tarixini və adət-ənənələrini dərindən öyrənmək üçün əvəzsizdir. Bu baxımdan, respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan məktəblilərin digər bölgələrə səyahətlərinin təşkil edilməsinin böyük əhəmiyyəti var. O qeyd edib ki, dövlətimizin başçısının təşəbbüsü ilə reallaşan bu layihə sayəsində onun kimi yüzlərcə şagird ölkəmizi daha da yaxından tanıyacaq.

* * *

Naxçıvan Muxtar Respublikasından yola salınan şagirdləri Bakıya gətirən təyyarə Heydər Əliyev Beynəlxalq Aeroportunda yerə enib.

Üzərinə “Ölkəmizi tanıyaq”, “Əziz naxçıvanlılar, Bakı şəhərinə xoş gəlmisiniz!” sözləri yazılmış banerlər quraşdırılan foyedə tur-aksiya iştirakçılarını folklor və rəqs qruplarının müşayiəti ilə milli geyimli qızlar qarşılayıblar. Qrup rəhbəri Kamal Fərəcov müsahibəsində bildirib ki, maarifləndirici tur-aksiya çərçivəsində muxtar respublikadan IX-XI siniflərdə təhsil alan 150 şagird, 20 bələdçi-müəllim Bakıya gəlib. Tur-aksiyanın məqsədi ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin şagirdlərə əyani şəkildə çatdırılmasıdır. Biz layihə iştirakçıları adından tur-aksiyanın təşəbbüskarı Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk.

Məktəb müəllimi Ülviyyə Cəfərova vurğulayıb ki, maarifləndirici tur-aksiyanın şagirdlər üçün müsbət cəhətləri çoxdur. İndiyədək ölkəmizin paytaxtı haqqında şagirdlərə şifahi dediklərimizi bizə əyani şəkildə göstərmək imkanı yaradılıb. Biz bu gözəl şəraiti yaratdığına görə Prezident İlham Əliyevə təşəkkür edirik. İnanıram ki, bu layihə şagirdlərimizin intellektual səviyyələrinin yüksəlməsində böyük rol oynayacaq.

Məktəbli Zöhrab Musayev deyib: “Tur-aksiya biz şagirdlər üçün fürsətdir. Bu layihə sayəsində Bakını daha yaxından tanıyacağıq. Əvvəllər Bakı barəsində kitablardan məlumat almışdıq. İndi isə onun tarixi yerlərini, mədəniyyət ocaqlarını görəcəyik. Bunları nəzərə alaraq maarifləndirici tur-aksiyanın təşkilatçılarına təşəkkür edirəm”.

Naxçıvanlı şagird Tutu Abbasova qeyd edib ki, gənclər bu səfərlər zamanı geriyə yeni və zəngin biliklərlə qayıdırlar. Bu mənada tur-aksiya çərçivəsində nəzərdə tutulan tədbirlər gənclər üçün faydalı olacaq.

* * *

Naxçıvan Muxtar Respublikası məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət dörd qrup Heydər Əliyev Mərkəzində olub.

Məktəblilərə dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ulu öndərin zəngin irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib. Bundan əlavə, mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Vurğulanıb ki, mərkəzdə rəsmi qəbulların, müxtəlif beynəlxalq konfransların, iclasların və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Mərkəzdəki Heydər Əliyev Muzeyi şagirdlərdə böyük maraq doğurub.

Məlumat verilib ki, muzey ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ərəfəsində açılıb. Muzeyin “Fotolarda əks olunmuş həyat”, “Azərbaycanın ictimai-siyasi həyatı”, “Dövlətçilik, irs və nailiyyətlər” bölmələrində ulu öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim olunur. Materiallar hər mövzu üzrə Azərbaycan və ingilis dillərində olmaqla səsli formatda təqdim edilir.

Məktəblilər Bakıda və regionlardakı tarixi memarlıq abidələrinin maketlərini əks etdirən “Mini Azərbaycan” sərgisi ilə tanış olublar.

Şərur rayonu Kərimbəyli kənd orta ümumtəhsil məktəbinin XI sinif şagirdi Süreyya Əkbərova müsahibəsində bildirib: “Bakı ilə tanışlıq məndə unudulmaz təəssürat yaratdı. Paytaxtımız Bakı Azərbaycanın ən gözəl və qonaqpərvər şəhərlərindən biridir. Mən Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan olduqca məmnun qaldım”.

Culfa şəhər 3 nömrəli orta ümumtəhsil məktəbinin XI sinif şagirdi Elgün Həşimov isə maarifləndirici tur-aksiyanın gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsinə mühüm təsir göstərdiyini vurğulayıb. O, ölkəmizlə yaxından tanışlıq və Bakıya gəlmək imkanının yaradılmasına görə təşkilatçılara təşəkkürünü bildirib.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində paytaxtımıza gələn naxçıvanlı məktəblilər Bakı Olimpiya Stadionunda olublar.

Məktəbliləri arenada milli geyimli qızlar və oğlanlar qarşılayıblar. Stadiona daxil olan aksiya iştirakçıları əvvəlcə dövlət himnini dinləyib, sonra arenanın tikintisini əks etdirən videoçarxa baxıblar.

Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev naxçıvanlı məktəbliləri Bakıda salamlamaqdan məmnunluq hissi keçirdiyini ifadə edib.

Naxçıvanlı məktəbli Ceyhan İmranlı müsahibəsində bildirib: “Bakıda bir çox tarixi məkanlarda və muzeylərdə olduq. Kitablardan oxuduqlarımızı burada əyani şəkildə görüb öyrənirik. Tur-aksiya çərçivəsində artıq Bakıya ikinci dəfədir səfər edirəm. Bakıdan xoş təəssüratlarla ayrılıram və yenidən paytaxtımıza qayıtmağı səbirsizliklə gözləyəcəyəm.

Tədbir bədii hissə ilə davam edib.

Sonda “Ölkəmizi tanıyaq” adlı fləşmob təqdim olunub.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasından Bakıya gələn məktəblilər “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruğunda olublar.

Əsl bayram ab-havası ilə qarşılanan. məktəblilərə qədim abidənin tarixi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Bakının 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən “Atəşgah” məbədi bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə zərdüşti atəşpərəstlərin məbədi yerləşib. “Atəşgah” məbədinin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara inşa edilib.

2012-ci ilin sentyabr ayından başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə məbədə bitişik ərazilərdə abadlıq işləri aparılıb, yardımçı binalar tikilib. Hazırda qədim atəşpərəst məbədi dünyanın hər yerindən turistləri cəlb edir.

Daha sonra naxçıvanlı məktəblilər “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda olublar. Onlara məlumat verilib ki, qoruq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 1988-ci ildə Qala qəsəbəsinin tarixi hissəsində yaradılıb. Ərazisi 81,5 hektar olan qoruqda 266 memarlıq və arxeoloji abidə qorunur. Bu abidələrin qorunması və qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə açıq səma altında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılıb.

Şagirdlər kompleksdəki arxeoloji qalereyaya, orta əsrlərə aid yaşayış evlərinin konservasiya olunmuş qalıqlarına, qədim dulusçuluq, xalçaçılıq, dəmirçilik sənətinin nümunələrinə maraqla tamaşa ediblər.

Sonra məktəblilər qoruğun ərazisində fəaliyyət göstərən Qala Əntiq Əşyalar Muzeyi, Qala qəsri və buradakı “Tullantıdan sənətə” muzeyi, Zirə Mədəniyyət Mərkəzi və Eko-Park ilə tanış olublar. Xüsusi layihə əsasında tikilmiş Zirə Mədəniyyət Mərkəzində yerləşən qalereya, fotostudiya, art-studiya, elektron kitabxana, IDEA resurs mərkəzi tur-aksiya iştirakçılarında xüsusi maraq doğurub.

Tur-aksiya çərçivəsində Zirə Xalça Muzeyində, Xalçaçılıq Tədris Mərkəzində də olan məktəblilər ekskursiyadan zəngin biliklərlə və xoş təəssüratla qayıdıblar.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən tur-aksiya çərçivəsində Daşkəsən, Goranboy və Naftalan rayonlarından olan məktəblilərdən ibarət 3 qrup İsmayıllıda olub.

Rayonla tanışlıq rusların yaşadıqları İvanovka kəndindən başlayıb. Burada mehribanlıqla qarşılanan şagirdlər Azərbaycanın multikultural dəyərlərindən bəhrələnən rusların, eləcə də digər millətlərin bir ailə kimi yaşadıqları İvanovka kəndinin sosial-iqtisadi, mədəni həyatı barədə ətraflı bilgilər alıblar.

Sonra tur-aksiya iştirakçıları rayon mərkəzinə gəliblər. Heydər Əliyev Mərkəzi ilə tanışlıq zamanı məktəblilər ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolara, tarixi sənədlərə baxıblar. Mərkəzdə fəaliyyət göstərən ayrı-ayrı dərnəklərin işi tur-aksiya iştirakçılarının marağına səbəb olub, onlarda xoş təəssürat yaradıb.

Heydər Əliyev Mərkəzində şagirdlərə İsmayıllı rayonunun tarixindən, maddi mədəniyyətindən, sosial-iqtisadi həyatından, Prezident İlham Əliyevin rayona səfərlərindən və bu səfərlərin nəticəsi olaraq həyata keçirilən sosial layihələrdən bəhs edən sənədli film göstərilib.

Sonra rayon mədəniyyət evində yerli musiqiçilərin və rəqs qrupunun ifasında rəngarəng konsert proqramı nümayiş etdirilib.

Goranboy rayonundan gələn qrupun rəhbəri Vüsalə Tağıyeva müsahibəsində deyib: “Prezident İlham Əliyevin tapşırığı ilə keçirilən bu layihə həm şagirdlərin istirahətinin şən və mənalı keçməsinə, həm də onların ölkəmizin ayrı-ayrı bölgələri barədə zəngin bilgilər almalarına şərait yaradır. Bu da təbii ki, məktəblilərin dünyagörüşünün daha da zənginləşməsində, onlarda Vətəni sevmək, ona bağlılıq kimi hisslərin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin respublikamızın səfalı, tarixi guşələrindən olan İsmayıllıya səfərdən məmnun qaldıqları hər an hiss olunur”.

* * *

Sumqayıt və Şuşa şəhərlərinin, Abşeron, Tərtər, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının məktəbliləri “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Lənkəranla tanışlıqdan sonra Lerik və Astara rayonuna səfər ediblər.

Məktəblilər Lerikdə Heydər Əliyev Mərkəzində, tarix-diyarşünaslıq və uzunömürlülər muzeylərində, “Relax” turizm və istirahət mərkəzində olublar.

Uzunömürlülər Muzeyində toplanan eksponatlara böyük maraqla tamaşa edən şagirdlərə məlumat verilib ki, Azərbaycanın dilbər guşələrindən biri olan Lerik rayonu təkcə özünün qədim tarixi, əsrarəngiz təbii gözəllikləri ilə deyil, uzunömürlü insanları ilə də tanınır. Vaxtilə planetimizin ən qocaman sakini olan Şirəli Müslümov dağlar qoynunda 168 il ömür sürüb. Muzeyin direktoru Dilarə Fətullayeva qeyd edib ki, hazırda rayonda yaşı 80-ni ötmüş 775, 89-90 yaş arası 100 nəfər, yaşı 100-dən yuxarı olan 8 uzunömürlü yaşayır.

Lerikdən sonra Astaraya gələn məktəbliləri rayon icra hakimiyyətinin, təhsil və mədəniyyət şöbəsinin məsul işçiləri, müəllimlər, şagirdlər və ictimaiyyət nümayəndələri qarşılayıblar. Astara Rayon İcra Hakimiyyəti başçısının müavini Yasəmən Rəsulova tur-aksiya iştirakçılarını təbrik edib, Prezident İlham Əliyevin tapşırığına əsasən təşkil olunan tur-aksiyaların məktəblilərin dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynadığını vurğulayıb.

Tur-aksiyanın iştirakçıları Astaraya səfər çərçivəsində Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olub, “Astaraçay” fabrikində istehsal prosesini izləyib, Astara şəhərində Xəzər dənizi sahili boyu 8 hektar ərazidə salınmış park-bulvar kompleksində gəziblər. Qonaqlar kompleksin ərazisində inşa edilmiş dünyanın ən böyük təndiri - “Sehirli təndir” önündə xatirə şəkli çəkdiriblər.

Məktəblilər, həmçinin rayonun Ərçivan qəsəbəsində “Yanar bulaq”da olub, “Ulduz” bədii filminin müəyyən epizodlarının lentə alındığı məkana baş çəkiblər.

* * *

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının Beyləqan, İmişli və Kürdəmir rayonundan olan iştirakçıları - IX-XI sinif şagirdləri, onları müşayiət edən qrup rəhbərləri, müəllimlər Gəncə şəhərinə gəliblər.

Şagirdlərə tur-aksiya çərçivəsində gəzəcəkləri məkanlardan bəhs edən Gəncənin bələdçi kitabları paylanılıb. Məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla anıblar.

Aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və siyasi fəaliyyətinin ayrı-ayrı məqamlarını, xüsusilə Gəncə şəhərinə tarixi səfərlərini əks etdirən foto və sənədlərlə tanış olublar.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq çərçivəsində şagirdlər mərkəzdə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə nümayiş olunan məşhur “Nikolya Şokolad Muzeyi”nin eksponatlarından ibarət sərgiyə də baxıblar. Məktəblilərə məlumat verilib ki, sərgidə ümumi kütləsi 700 kiloqramdan çox olan 300-dək yüksək keyfiyyətli şokolad məmulatı - şokolad və marsipan heykəllər, şokolad bagetlərlə çərçivəyə alınmış rəsmlər, miniatürlər, installyasiya və kompozisiyalar nümayiş etdirilir. Tur-aksiya iştirakçıları sərgidə məşhur şokolad ustası Nikolay Popovun nümayiş olunan əl işləri ilə bərabər, şokolad məhsulları ilə tanış olub, şokoladın yaranma tarixi haqqında məlumat alıblar.

Daha sonra Heydər Əliyev Mərkəzinin qonaqları “Nikolya Şokolad Muzeyi”nin eksponatlarına, xüsusilə ümummilli lider Heydər Əliyevin, Atatürkün, dahi Azərbaycan şairi Nizami Gəncəvinin şokoladdan hazırlanan portretlərinə maraqla baxıblar. Kütləsi 65 kiloqram olan “Qız qalası”, 512 hissədən ibarət, hündürlüyü 210 santimetr, çəkisi 45 kiloqram olan “Eyfel qülləsi”, həmçinin müxtəlif zövq və incəliklə hazırlanan heykəllər, portretlər və sənət əsərləri muzeyin qonaqlarına xoş təsir bağışlayıb.

**AZƏRTAC**